Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 206 (20.860)

2 noyabr 2013-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında xüsusi xidmətlərə görə Süleyman Dəmirəl Azərbaycan dövlətinin yüksək ordeni olan "Şərəf" ordeni ilə təltif olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev "Şərəf" ordenini Süleyman Dəmirələ təqdim etmişdir.



* * *

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəl birgə nahar etmişlər.

Heydər Əliyev Muzeyində növbəti açıq dərs

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Babək rayonunun Babək qəsəbə və Qoşadizə kənd tam orta məktəblərinin şagirdləri üçün açıq dərs keçilib. Dərsin mövzusu ulu öndərimizin həyatı və siyasi fəaliyyəti olub.

Ümummilli liderimizin mənalı ömür yolundan, dövlətçilik təcrübəsindən, müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafında müstəsna xidmətlərindən söhbət açıldığı dərsdə Babək qəsəbə tam orta məktəbinin tarix müəllimi Möhsün Həsənov bildirib ki, ulu öndərin fəaliyyətinin bütün mərhələləri ölkəmizin gələcəyinin perspektivlərini müəyyənləşdirməkdən ibarət olub.

Açıq dərsdə vurğulanıb ki, ulu öndər Azərbaycan dövlətini möhkəm təməllər üzərində qurub-yaradıb. Bu gün əldə edilən bütün nailiyyətlər, müvəffəqiyyətlər məhz dahi şəxsiyyətin məqsədyönlü və gərgin əməyinin, siyasi uzaqgörənliyinin nəticəsidir. Məhz onun prinsipiallığı, uzaqgörən siyasəti nəticəsində möhkəm və sarsılmaz təməllər üzərində qurulan müstəqil Azərbaycan dövləti əbədi yaşamaq hüququ qazanıb. Tariximizin ən böyük simalarının fövqündə dayanmaq haqqı qazanan dahi rəhbər Heydər Əliyev ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin ilhamvericisi və təşkilatçısı olub. Onun dünya siyasət xəzinəsini zənginləşdirən misilsiz fəaliyyəti Azərbaycan xalqının əsrlər boyu ürəyində yaşatdığı müstəqil dövlətçilik arzusunun gerçəkliyə çevrilməsində müstəsna rol oynayıb. Müstəqil Azərbaycan dövlətinin təşəkkül tapması ümummilli lider Heydər Əliyevin misilsiz xidmətidir. Ölkəmiz məhz ulu öndərimizin müəyyən etdiyi siyasi kursla irəliyə doğru gedir.

Dahi rəhbərin təhsilimizin inkişafına göstərdiyi dövlət qayğısından da danışan Möhsün Həsənov deyib ki, 1969-cu ildə Azərbaycanın rəhbəri seçilən xalqımızın böyük oğlu Heydər Əliyev milli mənafelərə xidmət göstərmək məqsədilə totalitar rejimin hökm sürdüyü bir zamanda Azərbaycanda milli-mənəvi dəyərləri qorumaqla tərəqqiyə, elm və təhsilin yüksəldilməsi üçün düşünülmüş elmi siyasət yeritməyə nail olub. Ölkəmizə rəhbərliyinin birinci dövründə – 1969-1982-ci illərdə Azərbaycan dövlətinin diqqət mərkəzində duran ən ümdə məsələlərdən biri elmin və təhsilin inkişafına qayğının artırılmasıydı. Lakin illərlə və böyük zəhmət hesabına yaradılmış infrastruktur 1989-1993-cü illərdə dağılmaq təhlükəsi ilə üz-üzə qaldı. Bu dağılma və tənəzzül xüsusən 90-cı illərin əvvəlində, müstəqillik əldə edildikdən sonra daha geniş miqyas aldı, təhlükəli meyillər özünü göstərməyə başladı. Lakin xalqımızın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev tərəfindən elə bir inkişaf konsepsiyası hazırlandı ki, milli dövlətçilik prinsipləri içərisində milli təhsil sistemi əsas yerlərdən birini tutdu. Ulu öndərin milli müstəqillik, milli dövlət quruculuğu ideyasının əsasında o dururdu ki, müstəqilliyin əbədiliyi, demokratiyanın inkişaf yolu məhz təhsilin səviyyəsindən asılıdır. Odur ki, dahi rəhbərin dövlətçilik strategiyasının əsas xətti milli dövlətçilik və hakimiyyət strukturlarının yaradılması və möhkəmləndirilməsi ilə yanaşı, milli təhsil sisteminin də yenidən qurulmasından ibarət olub.

Sonda şagirdlər muzeydəki eksponatlarla tanış olublar.

Kənd Təsərrüfatı İşçiləri Günü qeyd edilib

1 noyabr – Kənd Təsərrüfatı İşçiləri Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində tədbir keçirilib.

Tədbiri nazir Elşad Əliyev açaraq Kənd Təsərrüfatı Nazirliyinin və nazirliyin tabeliyində olan təşkilatların əməkdaşlarını, fermerləri, sahibkarları, torpaq mülkiyyətçilərini Kənd Təsərrüfatı İşçiləri Günü münasibətilə təbrik edib.

Nazir bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə iqtisadiyyatın aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafına xüsusi diqqət və qayğı ilə yanaşırdı. Ötən əsrin 70-ci illərindən başlayaraq ulu öndərin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində bu sahədə uğurlu nəticələr qazanılırdı. Lakin 90-cı illərin məlum hadisələri, bütövlükdə, ölkə iqtisadiyyatını, o cümlədən kənd təsərrüfatını da iflic vəziyyətinə saldı, infrastruktur tamamilə dağıdıldı. Belə bir dövrdə ulu öndərin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtması ilə ölkə iqtisadiyyatında yeni inkişaf mərhələsinin əsası qoyuldu, uğurlu aqrar islahatlar həyata keçirildi, kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə hüquqi baza yaradıldı, yeni torpaq-mülkiyyət münasibətləri formalaşdırıldı.

Qeyd olunub ki, bu gün Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın aparıcı qolu olan aqrar sahənin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Muxtar respublikada bu sahədə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, yerli istehsal və emal müəssisələrinin yaradılması, kənd təsərrüfatında məşğulluq səviyyəsinin təmin edilməsi diqqət mərkəzində saxlanılır.

Nazir diqqətə çatdırıb ki, aqrar sahədə davamlı islahatlar həyata keçirmədən kənd təsərrüfatı məhsullarının artımına və ərzaq təhlükəsizliyinə nail olmaq mümkün deyil. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət daşıyır. Dövlət proqramlarının uğurlu icrası daxili istehsal hesabına əhalinin zəruri kənd təsərrüfatı məhsulları ilə təmin edilməsinə şərait yaradıb.

Tədbirdə "Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı işçilərinin təltif edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 31 oktyabr tarixli Sərəncamı ilə mükafatlandırılan kənd təsərrüfatı işçilərinə "Naxçıvan Muxtar Respublikasına xidmətlərinə görə" və "Rəşadətli əməyə görə" nişanları təqdim olunub.

Mükafatlandırılanlar adından çıxış edən Həsən İsmayılov, Bəhruz Bayramov və başqaları belə yüksək qayğı üçün minnətdarlıqlarını bildiriblər.

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının şura iclası keçirilmişdir

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının növbəti şura iclası keçirilmişdir. Yığıncaqda oktyabrın 9-da keçirilmiş prezident seçkilərinin nəticələri müzakirə olunmuş, cari ilin ilk doqquz ayında görülmüş işlərə yekun vurulmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Tədbiri giriş sözü ilə açan YAP Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev ölkəmizdə keçirilən növbəti prezident seçkilərinin nəticələrini şərh etmiş, cənab İlham Əliyevin yenidən mütləq üstünlüklə dövlətimizin başçısı seçilməsini reallığın möhtəşəm qələbəsi adlandırmışdır.

Qeyd olunmuşdur ki, Şərur rayonunda 9 oktyabr prezident seçkilərində iştirak edən 56 min 186 nəfər seçicidən 50 min 843 nəfəri, yəni 90,5 faizi Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs vermişdir. Beləliklə, bölgənin sakinləri ümummilli liderin siyasi xəttinə sadiq olduqlarını və bu siyasi kursu layiqincə davam etdirən Prezident cənab İlham Əliyevi hər zaman dəstəklədiklərini növbəti dəfə nümayiş etdirmişlər.



Qeyd olunmuşdur ki, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının tərkibində 162 ilk partiya təşkilatı fəaliyyət göstərir. Bunlar 63 kənd ərazi ilk təşkilatı, 64 məktəb və 35 idarə-müəssisə ilk təşkilatlarıdır. Rayon təşkilatı bu ilin ilk 9 ayında iş planına uyğun olaraq, 3 şura, 10 idarə heyəti yığıncağı keçirmiş, eyni zamanda əlamətdar və tarixi günlərlə əlaqədar tədbirlərin təşkili diqqət mərkəzində saxlanılmışdır. Naxçıvan Muxtar Respublikasında 2013-cü ilin "Heydər Əliyev ili" elan olunması ilə əlaqədar Şərur rayonunda "Heydər Əliyev lektoriyası"nın məşğələləri, dəyirmi masalar, yaradıcı gənclərin əl işlərindən ibarət sərgilər, müxtəlif səpgidə idman yarışları təşkil olunur.

Əmir Babayev qarşıda duran vəzifələrə də toxunaraq qeyd etmişdir ki, təşkilatın əsas vəzifəsi əhali arasında ideya-siyasi işi daha da gücləndirməkdən ibarət olmalıdır. Tutduğu vəzifədən asılı olmayaraq, hər bir partiya üzvü partiyanın Proqram və Nizamnaməsinin tələblərinə, prinsiplərinə əməl etməli, siyasi proseslərdə, rayonda gedən quruculuq-abadlıq işlərində, yaşıllaşdırma tədbirlərində və qarşıya qoyulan digər vəzifələrin yerinə yetirilməsində yaxından iştirak etməlidir.

Yığıncaqda rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi ilk partiya təşkilatının sədri Ofeliya İbrahimova, Şərur Peşə Liseyi ilk partiya təşkilatının sədri Vəli Əhmədov, Zeyvə kənd tam orta məktəb ilk partiya təşkilatının sədri Məhərrəm Rəhimov, Dərəkənd ərazi ilk partiya təşkilatının sədri Bəxtiyar Əliyev çıxış etmişlər.

"İgidliyə görə" medalı şəhid zabitin valideynlərinə təqdim olunub

Məmmədov Şəhriyar Bayramqulu oğlu 1988-ci ildə Babək rayonunun Qahab kəndində anadan olmuşdur. İlk təhsilini kənd məktəbində alan Şəhriyar 2006-cı ildə Heydər Əliyev adına Hərbi Liseyi, 2010-cu ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmişdi. Şəhriyar Məmmədov Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində birillik ixtisastəkmilləşdirmə kursundan sonra 2011-ci ildə "N" hərbi hissədə xidmətə başlamışdı. Leytenant Məmmədov hərbi xidmətdə olduğu müddət ərzində hissə komandirliyinin, zabit yoldaşlarının, əsgərlərin dərin hörmətini qazanmışdır. 2013-cü il aprel ayının 8-də Ağdam rayonunun Kəngərli kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olan gənc zabitin Vətənimiz qarşısında xidməti əvəzsiz qalmamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında" 25 iyun 2013-cü il tarixli Sərəncamı ilə leytenant Məmmədov Şəhriyar Bayramqulu oğlu ölümündən sonra "İgidliyə görə" medalına layiq görülmüşdür.



Medalın şəhid zabitin valideynlərinə təqdim olunması münasibətilə dünən Naxçıvan Qarnizonunda tədbir keçirilmişdir. Tədbirdə çıxış edən qarnizon rəisi, general-leytenant Kərəm Mustafayev Şəhriyar Məmmədovun hərbi xidmətdə keçdiyi döyüş yolunun hər bir gənc üçün örnək olduğunu vurğulamış, şəhid anası Ceyran Əliyevaya belə bir oğul böyütdüyü üçün minnətdarlığını bildirmişdir.

Ceyran Əliyeva şəhid oğluna göstərilən belə ehtirama görə ailəsi adından dövlətimizə minnətdarlıq etmişdir.

Xəbərlər şöbəsi

Xalqımızın müdrik seçimi

Müstəqil Azərbaycanda növbəti prezident seçkiləri də uğurla başa çatdı. Xalqımız növbəti dəfə böyük müdriklik, uzaqgörənlik və yekdillik nümayiş etdirərək cənab İlham Əliyevə səs verdi. Yüksək fəallıq və mütəşəkkilliklə səciyyələnən, əsl demokratiya və şəffaflıq şəraitində keçirilən bu seçkilərdə cənab İlham Əliyevi yenidən dövlət başçısı seçməklə xalqımız həm ulu öndər Heydər Əliyevin siyasi xəttinə əbədi sədaqətini, sarsılmaz inamını bir daha qətiyyətlə nümayiş etdirdi, həm də cənab İlham Əliyevin son on ildə ölkə Prezidenti kimi bu kursun yüksək səviyyədə və layiqincə davamı istiqamətində misilsiz işlər görməklə Azərbaycanı qələbədən qələbəyə apardığını, genişmiqyaslı yüksəlişə qovuşdurduğunu minnətdarlıqla nəzərə alaraq, növbəti beş il üçün də taleyini ona etibar etdi.

2003-cü və 2008-ci illərdə xalqın iradəsi, tükənməz məhəbbəti və böyük dəstəyi ilə Prezident seçilən möhtərəm İlham Əliyev keçən müddət ərzində ölkəmizə hərtərəfli və ardıcıl nailiyyətlər qazandırmışdır. Ötən on il müstəqil Azərbaycanda böyük quruculuq və tərəqqinin yeni mərhələsi olmaqla ümummilli liderimiz Heydər Əliyev ideyalarının uğurlu davamı kimi əbədiləşmiş, ulu öndərimizin hələ 1 oktyabr 2003-cü il tarixdə xalqımıza müraciətində cənab İlham Əliyevə ifadə etdiyi inam və etibarın möhtəşəm təntənəsinə çevrilmişdir: ***"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

Tarixin əsrlərlə, min illərlə ölçülən yaşı müqabilində on il çox qısa zaman kəsiyidir. Lakin bu müddət ərzində cənab İlham Əliyevin müdrik və məqsədyönlü fəaliyyəti sayəsində müstəqil Azərbaycan siyasi, sosial, iqtisadi və mədəni həyatın bütün sahələrində heyrətamiz yüksəlişə, fundamental tərəqqiyə qovuşmuş, dünya dövlətləri sırasında inkişaf tempinə görə öncül mövqeyə keçmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi: ***"Bizim iqtisadi göstəricilərimiz dünya miqyasında ən gözəl göstəricilərdir. Bizim iqtisadi inkişafımız dünya miqyasında ən sürətlidir. Təkcə son 10 ilin yekunlarına baxmaq kifayətdir. Azərbaycanda yaşanan inkişaf dünyada çox nadir hallarda müşahidə edilir – həm siyasi, iqtisadi, həm energetika, mədəniyyət sahələrində".***

Son beş ildə planetimizin əksər ölkələrində, o cümlədən dünya birliyinin aparıcı dövlətlərində iqtisadiyyat güclü böhrana, geriləməyə məruz qaldığı, əhalinin sosial rifah halının ciddi şəkildə pisləşdiyi, milyonlarla insan iş yerlərini itirdiyi halda, Azərbaycanda dinamik inkişaf, iqtisadi yüksəliş davam etmiş, çoxsaylı və müxtəliftəyinatlı infrastruktur layihələri uğurla reallaşdırılmış, yüz minlərlə yeni iş yerləri açılmış, əməkhaqları dəfələrlə artırılmışdır. Çəkilən rahat yollar, tikilən körpülər, abadlaşan yaşayış məntəqələri, istifadəyə verilən yeni zavodlar, fabriklər, istehsalat kompleksləri, genişlənən müasir xidmət sahələri heyrətamiz yüksəlişdən, mükəmməl tərəqqinin böyük miqyasından soraq verir. Təkcə elə onu xatırlatmaq kifayətdir ki, 2003-2013-cü illərdə Azərbaycanın dövlət büdcəsi 19 dəfə, iqtisadiyyatı real ifadədə 3,4 dəfə artmış, ölkədə 1,2 milyon yeni iş yeri açılmışdır. Bu müddətdə əhalinin gəlirləri 6,9 dəfə, əməkhaqları 6,3 dəfə, pensiyalar 8,6 dəfə yüksəlmişdir. Ölkəmiz kosmosa yol açaraq özünün telekommunikasiya peykini orbitə buraxmışdır. Bu gün Azərbaycan başdan-başa yeni texnologiyaların geniş və effektiv tətbiqi meydanına çevrilmişdir. Böyük uğurla həyata keçirilən enerji layihələri və siyasəti Azərbaycanı dünyada nüfuz və mötəbər söz sahibinə çevirmişdir. Həmçinin digər sektorların inkişafına da xüsusi diqqət yetirilmiş, nəticədə, ölkəmiz hərtərəfli və sürətli yüksəlişdə olan bir dövlət kimi şöhrətlənmişdir. Ölkədə qanunların aliliyi təmin edilmiş, hüquqi-demokratik dövlət quruculuğu istiqamətində ciddi yüksəlişə nail olunmuş, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində mühüm işlər görülmüş, sağlam, şəffaf cəmiyyət formalaşdırılmışdır. Dövlətimizin beynəlxalq imici və mövqeləri daha da qüvvətlənmişdir. Təkcə elə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini xatırlatmaq kifayətdir ki, ölkəmizin dünya miqyasında böyük nüfuzu göz önünə gəlsin. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həlli istiqamətində yürüdülən konseptual xarici siyasət, beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi, dünya azərbaycanlılarının həmrəyliyinin, eləcə də ölkədə vətəndaş birliyinin daha da qüvvətlənməsi, mədəni tərəqqi, mükəmməl ordu quruculuğu və digər sahələrdə görülən qlobal işlər də müdrik Prezidentimizin yorulmaz fəaliyyətində daim diqqət mərkəzindədir.

Fərəh və qürurla qeyd edirik ki, artıq bu gün dünyanın müxtəlif ölkələrində inkişafın Azərbaycan modelindən qibtəylə danışılır, bu yöndə toplanılmış təcrübədən istifadə imkanları barədə tez-tez söz açılır. Bütün bunlar isə ölkə Prezidenti cənab İlham Əliyevin ulu öndər Heydər Əliyev ideyaları işığında ölkəmizi yeni müvəffəqiyyətlərə qovuşdurmasının, uca zirvələrə çatdırmasının parlaq təzahürləri sırasındadır.

Xalqımızın belə bir müdrik deyimi var: "Görünən dağa bələdçi lazım deyil". Bu mənada cənab İlham Əliyevin misilsiz fəaliyyətinin miqyas və mahiyyətini sadalamağa ehtiyac yoxdur. Çünki Prezidentimiz ötən illər ərzində öz müdrik rəhbərliyi ilə hər bir vətəndaşın sevgisini qazanmış, xalqın daha firavan yaşaması, Vətənin, millətin və dövlətin tərəqqisi üçün ciddi işlər həyata keçirmişdir. Hələ 2003-cü ildə Prezident kimi fəaliyyətə başlayanda cənab İlham Əliyev bəyan etmişdi: ***"Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm!"*** Bütün bunlar 2013-cü ilin 9 oktyabrında keçirilmiş prezident seçkilərində xalqımızın birmənalı şəkildə möhtərəm İlham Əliyevi qətiyyətlə dəstəkləməsini şərtləndirdi. Bu da təsadüfi deyil, çünki xalq Heydər Əliyev yolunun, onu səadətə qovuşduran bu siyasətin davamını istəyir.

Ötən illər ərzində Naxçıvan Muxtar Respublikasında da ulu öndər Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsi sayəsində cəmiyyət həyatının bütün sahələrində heyrətamiz nailiyyətlərin qazanılması qədim Naxçıvanı əsl intibaha qovuşdurmuşdur. Möhtəşəm yüksəlişin ifadəsi olan çoxsaylı faktlardan bəzilərinə nəzər salaq. 2003-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında iqtisadiyyat real ifadədə 12,5 dəfə artmış, sənaye sahəsində 45,4 dəfə, kənd təsərrüfatında 4,5 dəfə, tikinti sektorunda 14,2 dəfə, informasiya və rabitə sektorunda 9,7 dəfə, xarici ticarət dövriyyəsində 12,2 dəfə artım olmuşdur. 50 körpü, 797 kilometr uzunluğunda yeni avtomobil yolları, 7,3 min kilometrlik qaz kəmərləri çəkilmişdir. Təhsilə yönəldilən xərclər 5,1, elmin inkişafına sərf olunan xərclər 10, səhiyyə xərcləri 5,5 dəfə artmışdır. 84 ümumtəhsil məktəbi, 11 məktəbəqədər təhsil müəssisəsi, 21 xəstəxana, 60 ambulatoriya-poliklinika müəssisəsi tikilib istifadəyə verilmişdir. Muxtar respublikada son on ildə əhalinin sosial müdafiəsi və təminatına çəkilən xərclər 55,1 dəfə, əhalinin gəlirləri 9,5 dəfə, əməkhaqqı 9,5 dəfə yüksəlmişdir. Əhalinin məşğulluq probleminin həlli istiqamətində də ciddi işlər görülmüş, 58 min 460 yeni iş yeri açılmışdır. Heyrətamiz və hərtərəfli yüksəlişdən soraq verən belə faktlar minlərlədir.

Beləliklə, 9 oktyabrda ölkəmiz uğurların davam və inkişaf edəcəyi növbəti mərhələyə doğru inamlı addım atmışdır. 9 oktyabrda xalqımız növbəti dəfə düzgün seçimini edərək XXI əsrin dünya liderləri sırasında xüsusi mövqeyə malik böyük şəxsiyyət, qüdrətli siyasətçi, əsl rəhbər İlham Əliyevi Prezident seçmişdir. Bu seçim Vətənimizin və xalqımızın bundan sonrakı tərəqqisinin əsl təminatı və qarantıdır, Heydər Əliyev yolu ilə inamla, qətiyyətlə irəliləyən müstəqil Azərbaycanın daha da yüksəlişinin yeni müjdəsidir! Ölkə Prezidenti cənab İlham Əliyevin seçkilərdən sonra xalqa müraciətində qeyd etdiyi kimi: ***"Azərbaycan xalqı bu seçkilərdə azad, şəffaf şəkildə öz iradəsini ortaya qoydu. Azərbaycanda keçirilən prezident seçkiləri demokratiyanın təntənəsidir. ...Azərbaycan xalqı bu seçkilərdə son on il ərzində görülən işlərə öz yüksək qiymətini verib… Gələcək inkişafımızla bağlı məndə və əminəm ki, sizdə heç bir şübhə yoxdur. Azərbaycan bundan sonra da inamlı inkişaf dövrünü yaşayacaq… Bir daha sizi əmin etmək istəyirəm ki, var gücümlə doğma xalqımızın rifahı, dövlətimizin möhkəmləndirilməsi üçün çalışacağam. Biz birlikdə hələ böyük qələbələrə imza atacağıq!"***

Hüseyn HƏŞİMLİ
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, filologiya elmləri doktoru, Əməkdar elm xadimi

Yeni modellərdə avtomobillər istehsal olunacaq

Naxçıvan Avtomobil Zavodunun tikintisinə 2008-ci ilin avqust ayında başlanılıb. İstehsal sahəsi, satış salonu, anbar və inzibati binadan ibarət olan zavodun 2472 kvadratmetrlik ərazisində Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb.

2010-cu il yanvarın 11-də istifadəyə verilən Naxçıvan Avtomobil Zavodunun açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri belə tədbirləri ölkəmizdə ulu öndərimizlə başlanan işlərin davamı kimi dəyərləndirərək demişdir: ***"Əgər Sovet hakimiyyəti illərində ulu öndərimiz Gəncə Avtomobil Zavodunun qurulması işinə başlamasaydı, müstəqillik illərində isə cənab Prezident həmin zavodun fəaliyyətinin təmin olunmasına şərait yaratmasaydı, indi Naxçıvan Avtomobil Zavodunun qurulması da sual altında ola bilərdi".***

Naxçıvan Avtomobil Zavodunda tikilib istifadəyə verilən ikimərtəbəli binanın birinci mərtəbəsində Satış şöbəsi və sərgi-satış salonu, ikinci mərtəbədə isə Marketinq şöbəsi və inzibati heyət üçün ayrı-ayrı otaqlar yerləşir. Marketinq şöbəsi daxili bazarın tələbatını öyrənməklə yanaşı, xarici əlaqələrin yaradılması və ehtiyat hissələrinin alınıb gətirilməsi vəzifələrini icra edir. Müəssisədə yığım sexi, anbar, yük boşaldılması üçün platforma, sınaq yolu və sınaq avadanlıqları quraşdırılıb.

İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə "NAZ-Lifan" markası ilə istehsal olunan avtomobillər baqaj hissəsi salonda olan (xetçbek) "320" və "520İ", baqaj bölməsi salondan kənarda yerləşən (sedan) "520" və "620" modellərindən ibarətdir. Bu avtomobillər ayrı-ayrı hissələrdən yığılıb sınaq meydançasına çıxarılır. Burada 2011-ci ildə yeni "NAZ-Lifan X-60" modelinin istehsalı üçün konveyer xəttində müəyyən dəyişikliklər aparılıb, 2012-ci ilin yanvar ayından etibarən isə "NAZ-Lifan X-60" modelinin kütləvi istehsalına başlanılıb. Həmçinin müəssisəyə təcrübə-sınaq məqsədilə ötən ilin sonunda kiçik partiyada 6 nəfərlik mikroavtobus və 800 kiloqram yükgötürən avtomobillərin hissələri idxal olunub. Artıq "NAZ-Lifan" markalı 6 nəfərlik mikroavtobusun "LF 6401" modeli, 800 kiloqram yükgötürən furqonlu avtomobilin "LF 5028" modeli və 800 kiloqram yükgötürən bortlu yük avtomobilinin "LF 1022" modeli satışa çıxarılıb. Məqsəd bazarı öyrənmək və gələcəkdə tələbat olarsa, kütləvi istehsala başlamaqdır. Bu istiqamətdə işlər uğurla davam etdirilib, cari ilin oktyabr ayında "NAZ-Lifan 620" model avtomobillər avtomatik sürət qutusu ilə təchiz edilərək satışa çıxarılıb. Yaxın günlərdə isə istər texniki göstəriciləri, istərsə də keyfiyyət baxımından daha komfortlu avtomobil – "NAZ-Lifan 720" model avtomobil alıcılara təqdim olunacaq. İlin sonunda isə avtomatik sürət qutuları ilə təmin olunmuş "NAZ-Lifan" markalı avtomobillərin "330", "630" və "X-70" modellərinin Azərbaycan Respublikasında naviqasiya sistemi ilə təchiz edilmiş avtomobillərin Bakıda keçiriləcək beynəlxalq sərgisində təqdimatı nəzərdə tutulur.

Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə 5 modeldə "NAZ-Lifan" markalı minik avtomobilləri istehsal edilir. İllik istehsal gücü 4-5 min ədəd minik avtomobili olan Naxçıvan Avtomobil Zavodu Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir.

İstehsal olunan avtomobillər Nəzarət şöbəsindən keçdikdən sonra satışa buraxılır. Zavod fəaliyyətə başlayan zaman ilkin mərhələdə istehsal prosesi xarici mütəxəssislər tərəfindən aparılırdısa, hazırda bu proses yerli mütəxəssislər tərəfindən həyata keçirilir.

Avtomobil Zavodunun fəaliyyətə başladığı dövrdən ötən 4 il "NAZ-Lifan" markalı minik avtomobilinin tanıdılması mərhələsi olub. Hazırda istehsal olunan maşınların daha münasib qiymətə istehlakçılara təqdim olunması ilə əlaqədar layihələr hazırlanır. Müəssisədə möhürləmə, qaynaq və boyama sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Bu isə ban hissələrinin sökülü vəziyyətə gətirilməklə müəssisədə qaynaq olunmasına imkan verəcək. Hesablamalara görə, 1 konteynerə orta hesabla 6 avtomobil banı yerləşirsə, sökülü vəziyyətdə 150-200 avtomobil banı yerləşir ki, bu da daşınma xərcinin azalması deməkdir.

Qeyd edək ki, istehsal olunan avtomobillərin milliləşdirilməsi planlaşdırılır. Bunun üçün avtomobil hissələrinin 51 faizinin ölkəmizdə istehsal olunması şərtdir. Bu məqsədlə avtomobilin müəyyən hissələrinin ölkəmizdə, o cümlədən Naxçıvanda istehsal edilməsi nəzərdə tutulur.

Naxçıvan Avtomobil Zavodunda istehsal olunan minik avtomobillərinin satışı işi də yüksək səviyyədə aparılır, Naxçıvan və Bakı şəhərlərində satış mərkəzi, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazası yaradılıb. Mühərrik və sürət qutusuna 40 min kilometr və ya 2 il zəmanət verilən avtomobillərin satışı nağd və ya sərfəli kredit şərtləri ilə aparılır.

Avtomobillərin dəyəri 8400-15200 manat arasında dəyişir. Ötən 4 il müddətində 1898 ədəd "NAZ-Lifan" markalı minik avtomobili istehsal olunub, bunlardan 1795 ədədi satılıb. Bu isə onu göstərir ki, "NAZ-Lifan" markalı minik avtomobilləri maşın bazarında artıq özünəməxsus yerə malikdir. Sevindirici haldır ki, yerli istehsala önəm verilir, Naxçıvan Avtomobil Zavodunda istehsal olunan avtomobillər ölkəmizin digər regionlarında da istehlakçılar tərəfindən rəğbətlə qarşılanır. Hazırda muxtar respublikamızda, Bakı, Sumqayıt, Neftçala, Xaçmaz və Quba şəhərlərində "NAZ-Lifan" markalı minik avtomobilləri ilə taksi xidməti göstərilir.

✍ **Kərəm HƏSƏNOV**

Görən deyir, bir də görüm Xanlıqları...

Tarixi abidələr bu yurdun qədimliyindən soraq verir

Naxçıvan torpağı özünün tarixi və memarlıq abidələri ilə zəngindir. Bu torpaqda insan yaşayışının neçə minillik tarixini özündə yaşadan Qazma, Gəmiqaya, Kültəpə, Oğlanqala və sair kimi qədim yaşayış məskənlərindən – arxeoloji abidələrdən tutmuş ta bu günümüzün memarlıq incilərinədək uzanan siyahıda iki mindən çox maddi-mədəniyyət nümunəsi var. Və bu abidələr içərisində, təbii ki, orta əsrlərdə yaranan və bütün Şərq aləmində tanınan Naxçıvan memarlıq məktəbinin yadigarları da az deyil.

Bu memarlıq inciləri sırasında dini abidələr də çoxluq təşkil edir. Buraya, əsasən, məscidlər, xanəgahlar, mədrəsələr daxildir.

Bəhs olunan abidələr içərisində Parçı imamzadəsi də var. Bu abidə orta əsrlərə aid ziyarətgahdır. Abidə Xanlıqlar kəndinin şimal hissəsində yerləşir. Günbəzli böyük binadan ibarət olan imamzadənin mərkəzi salonunda bir qəbir var. Deyilənlərə görə, vaxtı ilə qəbrin üzərində kitabə olub. Abidənin üzərində sonralar türbə ucaldılıb. Memarlıq-konstruktiv əlamətlərinə görə Parçı imamzadəsi 16-17-ci əsrlərə aid edilir.

Yolum, güzarım Xanlıqlaradır

Şərur şəhərinin mərkəzində köhnə tanışlarımdan biri – təqaüdçü müəllim Məhəmmədəli Cəlilovla qarşılaşdım. Hal-əhval tutduqdan sonra Xanlıqlara gedəcəyimi dedim. Üzümə baxıb gülümsündü:

– Xanlıqlar şəhərinə?

Təəccübləndiyimi görüb özü də sualına aydınlıq gətirdi:

– Kəndimizin şəhərdən nəyi əskikdir? Yəqin son vaxtlar yolunuz ora düşməyib. Gəl otur maşınıma, səni aparım gəzdirim. Öz gözlərinlə gör ki, kəndimizdə necə büsat qurulub, necə şəhər mədəniyyəti yaradılıb.

Yeri gəlmişkən deyim ki, Şərur şəhərindən Naxçıvan şəhərinə gedən yol Xanlıqların içərisindən keçir. Yadıma əvvəllər bu yaşayış məntəqəsindən keçən yolun çətinliyi düşdü. İki avtomobil qarşı-qarşıya gələndə biri saxlayıb gözləməli olurdu. Kənd mərkəzinə gələn piyadalar da həddindən artıq əziyyət çəkirdilər. Hələ mən yolun kələkötür olmasını demirəm. Elə bil Məhəmmədəli müəllim ürəyimdən keçənləri üzümdən oxumuşdu:

–Ümumi uzunluğu 4 kilometrə yaxın olan yolumuza daha söz ola bilməz. Asfalt örtük salınıb, yol boyu 1 körpü, 20 su keçidi tikilib. İkizolaqlı yolun hərəkət hissəsinin eni 9 metrdir.

...Bu da Xanlıqlar. Kəndin ətraflarındakı traktorların, toxumsəpən aqreqatların səsi bir-birinə qarışmışdı. Gələcəyin bol taxıl məhsulunun əsası da məhz indi – payızda qoyulur. Torpağa toxum düşür.

Kənd mərkəzi göz oxşayır

Xanlıqlarda oktyabrın 21-də əsl bayram sevinci yaşanıb. Həmin gün burada bir neçə sosial obyekt istifadəyə verilib. Onlardan biri kənd mərkəzidir. Yeni binanın açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Bu gün Xanlıqlar kəndi muxtar respublikanın abad yaşayış məntəqələrinin sırasına qoşulur. Kənddə müasir avtomobil yolu, məktəb binası, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri istifadəyə verilir. Burada fəaliyyət göstərən təşkilatların işinin günün tələbləri səviyyəsində qurulması, kənddə elektrik, qaz və rabitə xətlərinin yenilənməsi göstərilən dövlət qayğısının daha bir nümunəsidir. Eyni zamanda görülən bu işlər insanların rahatlığı istiqamətində həyata keçirilən tədbirlərin davamıdır".***

Mərkəzin qarşısında kənd ağsaqqalı İsmayıl Səfərovla görüşdük. Sevincinin həddi-hüdudu yox idi. Bizi görcək dedi:

– Görürsünüz, necə yaraşıqlı ikimərtəbəli kənd mərkəzimiz var. Daha kəndimizin qurumları əvvəlki kimi hərəsi bir tərəfdə – dağınıq deyil. Burada rabitə evi, polis sahə məntəqəsi, icra nümayəndəliyi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, baytarlıq məntəqəsi, mədəniyyət evi və zal yerləşir. Bizim borcumuz tikilənləri, qurulanları lazımi səviyyədə qorumaqdan, kəndimizdə həyata keçirilən tədbirlərdə fəal iştirak etməkdən ibarətdir. Mən ixtisasca aqronomam, özü də kitab, qəzet-jurnal həvəskarıyam. Kitabxanamıza üzv yazılmışam. Daha rayon mərkəzinə getməyə ehtiyac yoxdur. Burada nə az, nə çox, 8 mindən çox kitab vardır.

Qeyd edək ki, kənd mərkəzində yerləşən rabitə evində 256 nömrəlik yeni nəsil ATS quraşdırılıb. ATS Xanlıqlar və Stansiya Daşarx kəndlərində 140 abonentə xidmət göstərir. Həmçinin burada poçt bölməsi yaradılıb, gündəlik mətbuatın, danışıq və internet kartlarının satışı təşkil edilib.

Ölkənin inkişafı təhsildən keçir

Kənd tam orta məktəbinin qarşısında qələbəliklə rastlaşdıq. Xanlıqlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İlham Mustafayev bildirdi ki, bu gün məktəbdə "Heydər Əliyev ili"nə həsr olunmuş tədbir keçiriləcək. Tədbirə valideynlər də dəvət olunublar.

Biz də tədbirdə iştirak etdik. Müəllimlərin, valideynlərin ürək sözlərini, şagirdlərin ifasında ulu öndərimizə, ölkə Prezidentinə, Vətənimizə həsr olunmuş şeirlərin bədii qiraətini dinlədik. Məktəbin müəllimi Bəsti Cəlilovanın dediyi sözlər isə hamının ürəyindən xəbər verdi:

– Bu gün kəndimizdə qurulanlar, yaradılanlar dahi rəhbərimizin siyasətinə sadiqliyin ifadəsidir. Bu siyasət hesabına ölkəmizin iqtisadi qüdrəti gündən-günə artır. Bu siyasət bizi inamla işıqlı gələcəyə doğru aparır.

Məktəbin direktoru Nurəddin Niftəliyevlə söhbət zamanı öyrəndik ki, ötən tədris ilində məktəbin 4 məzunu ali məktəblərə, 2-si orta ixtisas məktəbinə, 1-i isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub. Tələbə adını qazananlardan biri 500-700 intervalında bal toplayıb. Zirzəmi ilə birlikdə 3 mərtəbəli, 396 şagird yerlik təzə məktəb binasının istifadəyə verilməsi pedaqoji kollektivi təhsil uğurlarını daha da artırmağa ruhlandırıb.

Təhsil ocağında 22 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter otağı, 2 müəllimlər otağı, kitabxana, bufet və idman zalı vardır.

Məktəbin kitabxanasına yeni ədəbiyyatlar və dərsliklər verilib, kitab fondu zənginləşdirilib.

Kompüter otaqlarında 38 kompüter quraşdırılıb və internetə qoşulub. Məktəbdə hər 6 şagirdə bir kompüter düşür. Sinif otaqlarında quraşdırılan 4 elektron lövhə isə interaktiv tədrisin daha səmərəli aparılmasına şərait yaradıb. Elektron lövhələrin və kompüterlərin sürətli internet xəttinə qoşulması tədris prosesi zamanı ölkəmizin digər təhsil ocaqları ilə videoəlaqə yaratmağa və keçilən dərsləri izləməyə imkan verir.

İnsanların sağlamlığı naminə

Muxtar respublikamızda geniş vüsət almış quruculuq tədbirləri sırasında yeni xəstəxanalar tikmək, tibb məntəqələri, həkim ambulatoriyaları inşa etmək, onların maddi-texniki bazasını gücləndirmək, əhalinin sağlamlığı keşiyində dayanmaq dövlətimizin vacib qayğılarından biridir. Bu istiqamətdə son illər muxtar respublikamızda ardıcıl olaraq məqsədyönlü tədbirlər həyata keçirilir. Xanlıqlar kəndində inşa olunmuş ikimərtəbəli həkim ambulatoriyası bu istiqamətdə aparılan quruculuq işlərinin məntiqi davamıdır. Ambulatoriya binasında stomatoloq üçün kabinə, palata, doğuş, peyvənd, aptek, mama və manipulyasiya otaqları vardır. Ambulatoriyaya lazımi tibbi avadanlıqların qoyulması kənd əhalisinə göstərilən səhiyyə xidmətinin keyfiyyətini xeyli yüksəldib.

Nümunəvi xidmət

Kənd meydanında tikilən ikimərtəbəli binada ərzaq, sənaye və təsərrüfat malları mağazaları, qadın gözəllik salonu, 2 bərbərxana, dərzi sexi, ayaqqabı təmiri sexi və ət satışı dükanı yerləşir. Xidmət mərkəzində 9 nəfər işlə təmin olunub. Bura da əhalinin gur yerlərindən biridir. Köhnə tanışım Hüseyn Əliyev adamların arasından ayrılıb bizə yaxınlaşdı:

– Allah bizə bu şəraiti yaradanların ömrünü duz dağına döndərsin. Daha adi bir işdən yana rayon mərkəzinə getməkdən canımız qurtarıb. Qənd, çay, bel, dəryaz, balta aldım. Vaxtım hədər yerə itmədi. İndi gedirəm traktorla sahəmi şumladam. Taxıl əkəcəyəm.

Bu kəndin adamları torpağa, əməyə bağlıdırlar. Bekar qalmağı xoşlamırlar, vaxtlarının qədrini bilirlər. Xidmət mərkəzi bu işdə onların çox karına gəlib.

Xanlıqlar həm də nur mənbəyidir. 35/10 kilovoltluq "Xanlıqlar" yarımstansiyası Şərur rayonunda 21 min 358 nəfərin yaşadığı 15 kəndi elektrik enerjisi ilə tam təmin edir. Elektrik yarımstansiyasının yenidən qurulması dayanıqlı və keyfiyyətli enerji təminatında mühüm rol oynayır.

Qeyd etdiyimiz kimi, bu il Xanlıqlar kəndində kompleks quruculuq işləri aparılıb. Yeni sosial obyektlərin tikilməsi ilə yanaşı, kənddə 1000 metr fiber-optik kabel və 6500 metr elektrik xətti çəkilib, 250 kilovat-amper gücündə yeni transformator quraşdırılıb, 1200 metr uzunluğunda müxtəlif diametrli qaz xətlərinin yeri dəyişdirilib.

Kəndin içməli və suvarma su təminatı da diqqət mərkəzində saxlanılıb, 800 metr uzunluğunda arxlara müxtəlif diametrli borular salınıb, 500 metr uzunluğunda içməli su xətti təmir olunub.

Sözün həqiqi mənasında, görən deyir, bir də görüm qəsəbə timsallı Xanlıqları.

Kəndin təsərrüfat həyatı

Xanlıqların zəngin əkinçilik ənənələri vardır. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İlham Mustafayev bildirdi ki, 1483 hektar ərazisi olan kənddə 580 təsərrüfat var. Bu təsərrüfatlarda 2465 sakin yaşayır. Aqrar islahatlar zamanı kənd sakinlərinə 661 hektar pay torpağı verilib. Kəndin təbii-coğrafi mövqeyi burada əkinçilik və heyvandarlığın inkişafı üçün gözəl şərait yaradır. Elə buna görə də kənd sakinləri uzaq keçmişdən günümüzədək bu sahələri inkişaf etdirməyə çalışıblar.

Dövlət qayğısı da yetərincədir. Təkcə bu il kəndin torpaq mülkiyyətçilərinə 45 min manat kredit verilib. Son illər aparılan meliorativ tədbirlər, yeni artezian quyularının istifadəyə verilməsi kəndin suvarma və içməli su problemini həll edib, torpaq sahələrinin əkilməsinə, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına səbəb olub. Taxılçıların qazandığı uğurlar daha sevindiricidir. Cari ildə 355 hektarın taxılı biçilib, 1136 ton məhsul istehsal edilib ki, bu da hər hektardan 32 sentner "sarı kəhrəba" tədarükü deməkdir.

Hazırda kəndin ayrı-ayrı məhəllələrində 3 çörəkbişirmə sexi fəaliyyət göstərir. Bu sexlərdə 30 nəfərədək kənd sakini çalışır. Əhalinin çörəyə olan tələbatı bu sexlərin vasitəsilə ödənilir.

Kənddə həyata keçirilən möhtəşəm quruculuq-abadlıq işləri sakinlərə yüksək ovqat bəxş edib. Təbii ki, bunlar muxtar respublikada insan amilinə yüksək qiymət verilməsinin nəticəsidir. Xanlıqların fədakar insanları bunu dərindən dərk edir, bu gün nail olduqları ilə kifayətlənmir, sabah daha yüksək nailiyyətlər qazanmağa çalışırlar.

Cəfər ƏLİYEV

Torpağa toxum düşür...

Sərhəd bölgəsi Sədərək rayonunda payızlıq taxıl əkini davam edir. Rayon İcra Hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini Bəxtiyar Mahmudovun sözlərinə görə, bu il rayonda 2128 hektarın taxılı biçilmiş, 6142 ton məhsul istehsal edilmiş, məhsuldarlıq 28,9 sentnerə çatdırılmışdır. Növbəti uğurdan ruhlanan taxılçılar gələn ilin bol məhsulunun əsasını qoymaqdadırlar. Məlumat üçün bildirək ki, əkinəyararlı 3250 hektar torpaq sahəsi olan rayonda hələlik 450 hektar sahə şumlanmış, 330 hektardan çox sahədə isə buğda əkilmişdir. Əkilən sahələrin 280 hektarı suvarılmışdır.

Əkin şırım üsulu ilə aparılır. Mütəxəssislərin təsdiq etdiyi kimi, bu üsulla əkilmiş sahələrdə suvarma səmərəli təşkil olunur və nəticədə, daha çox məhsul götürülür. Bundan əlavə, Sədərəkdə torpağın tərkibi, iqlimi və ərazilərin relyef xüsusiyyətləri nəzərə alınaraq zəmilərə bölgə üçün daha əlverişli olan toxum səpilir. "Bezos" və "Dağ-daş" belə buğda sortlarındandır. Onu da qeyd edək ki, toxumlar əvvəlcə toxumtəmizləyən texnikada təmizlənib dərmanlandıqdan sonra torpaq sahibkarlarına verilir.

Sədərəkdə əkin sahələrinin suvarılması da yaxşı təşkil olunub. Rayonun əkinəyararlı torpaq sahələrinin suvarılması üçün Araz çayından çəkilmiş beşpilləli nasos stansiyasından istifadə olunur. Bundan başqa, Arpaçay Su Anbarının sağ sahil kanalından öz axarı ilə gələn su da əkin sahələrinin suvarılmasında əhəmiyyətli rol oynayır. Bu ildən isə Araz çayından qidalanan Şir arxı üzərində yeni nasos stansiyası quraşdırılır. Nasos stansiyası istismara verildikdən sonra Sədərəyin daha min hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil ediləcəkdir.

"Vergi partnyorluğu sazişi"nin əhəmiyyəti izah edilib

"Son illər həyata keçirilmiş islahatların tərkib hissəsi kimi vergi orqanlarının işinin çevik və işlək mexanizmlər əsasında qurulması ölkəmizdə liberal biznes mühitinin təkmilləşməsinə, habelə vergi daxilolmalarının artım dinamikasına müsbət təsirini göstərir". Bu fikirlər Babək Rayon Vergilər Şöbəsində keçirilən sahibkarlarla görüşdə səsləndirilib.

Tədbirdə vergi ödəyiciləri ilə bağlanması nəzərdə tutulan vergi partnyorluğu sazişləri barədə danışan şöbənin rəisi Səftər Əliyarov qeyd edib ki, "Vergi partnyorluğu sazişi" vergi orqanı ilə vergi ödəyicisi arasında vergi risklərinin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Bu sənəd vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək, çevik və səmərəli vergi nəzarəti yaratmaq, sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla onun inkişafını stimullaşdırmaq, əməkdaşlığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək kimi mühüm məqsədləri müəyyən edir.

Qaydalara əsasən, sazişin bağlanılması məqsədilə vergi ödəyicilərinin seçimi zamanı ilkin olaraq sertifikatlaşdırılmış proqram təminatı ilə mühasibat uçotu aparan vergi ödəyicilərinə, ƏDV ödəyicilərinə, maliyyə xidmətlərini həyata keçirən kredit və sığorta təşkilatlarına, vergi ili ərzində yaranmış vergi öhdəliklərini tam və vaxtında icra edən, habelə alğı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən vergi ödəyicilərinə üstünlük veriləcək.

Sonra şöbənin əməkdaşlarından Ataxan Nuriyevin, Habil Fərhadovun, Gülşən Eyvazovanın və başqalarının çıxışları olub.

Xəbərlər şöbəsi

Uşaqlıq oyunlarımız, oyuncaqsız uşaqlığımız...

“Oğlumun nağılları və yaxud bizim həqiqətlərimiz” silsiləsindən üçüncü nağıl

Növbəti nağıl-həqiqətin ilk cümlələri axşam işdən evə qayıdanda öz-özünə yarandı. Qapını açıb içəri keçməyimlə oğlum əlimdəki çantaları alıb öz otağına qaçdı və bir neçə dəqiqədən sonra üzgün olaraq yanıma qayıtdı. Nə baş verdiyini anlamışdım. Ona söz verdiyim oyuncağı almaq tamam yadımdan çıxmışdı. Sabah mütləq alacağıma inandırandan sonra balacanın kefi bir az düzəldi...

...Həmin hadisənin ən yaxşı tərəfi isə uşaqlıq illərimi geri gətirməsi olmuşdu. Uşaqlıq oyunlarımız, oyuncaqlarımız, daha doğrusu, oyuncaqsız uşaqlığımız gözlərimin önündə canlanmışdı.

Dərslərini bitirən oğlum dişlərini fırçalayıb yerinə uzananda məni çağırdı. Nağıl vaxtı idi. Ona bu gün yaşadığı uşaqlığa görə müstəqilliyimizə, dövlətin bugünkü qayğısına borclu olduğunu anlatmalıydım...

* * *

...Bir vaxt vardı, heç nə yoxdu... Heç nə olmayan o vaxtlarda bapbalaca bir kəndin uşaqları heç vaxt ataları işdən gələndə onların qabağına qaçmır, boş olan əllərindən nə çantalarını alıb otaqlarına qaçırdılar, nə də bu haqda hər hansı təcrübələri var idi.

Həmin o vaxtlarda insanlar elə bir çətinlik içində yaşayırdılar ki, evə bir tikə çörək gətirməkdən başqa düşünəcəkləri mövzu, uşaqların da bu vəziyyətdə ata-analarından istəyəcəkləri hər hansı bir istək yox idi.

Belə bir zamanda da uşaqlar böyüyürdü, onlar da “uşaqlıqlarını” oyunlarla keçirmək istəyirdilər. Balaca kəndin balacalarının oyuncaqları da qeyri-adi idi o vaxt. Köhnə parçalardan hazırlanmış və alüminium simlə bir neçə yerdən bərkidilmiş “yumru futbol topu” o dövrkü uşaqların ən çox sevdiyi və oynadığı oyuncaqları idi. Məhəllələrarası yarışlar da məhz belə toplarla keçirilərdi. Futbol ayaqqabısı isə bir neçə uşaqda olardı. Qalanları ayaqyalın bu “top”un arxasınca qaçar, iki daş arasında qurulmuş “qapı”ya qol vurmağa çalışardılar.

O dövrdə yaşca məktəbin yuxarı siniflərində oxuyan uşaqların alüminium simdən hazırladıqları dördtəkərli arabalar da digər uşaq oyuncaqlarından idi. Barmaq qalınlığındakı söyüd budaqlarının hər iki ucuna ip bağlayıb Beyrək “kamanı”, qurumuş günəbaxan zoğlarını torpaqdan çıxarıb torpağını təmizləyib Koroğlu “əmudu”, yaxud elə o günəbaxan çubuğundan Babək “qılıncı” düzəldərdilər. Ən çox oynadıqları oyunlardan biri də həmin bu “silahların” istifadə edildiyi məhəllələrarası “güllə-güllə” oyunu idi.

Qız uşaqlarının ən sevimli oyuncaqları isə ya analarının, ya bibilərinin, ya da özlərindən böyük bacılarının bir-birinə sarınmış əski parçalarından hazırladıqları “gəlinciklər” idi.

Gizlənqaç isə qız və oğlanların birlikdə oynadığı folklorun – dünənin bu günədək qoruyub saxladığı unudulmaz uşaq oyunu idi.

– Dədə, bəs o uşaqların heç velosipedləri, gəlinckləri, rəngbərəng topları, tətiyini sıxanda səs çıxaran tapançaları, pultla idarə olunan maşınları yox idi?

– O uşaqların dövründə sənin yaşadığın xoşbəxt günlər yox idi. O uşaqların yaşadığı günlərdə sənin yaşadığın dövlət, sənin yaşadığın müstəqillik, sənin yaşadığın firavan həyat, sənin yaşadığın bir çox gözəlliklər yox idi. Ona görə də o uşaqların nə sənin saydığın oyuncaqları var idi, nə də ata-analarının onları almağa imkanları çatırdı.

– Yaxşı, dədə, nağılın sonrasını danış...

* * *

...Nağılın sonrasında oğlum da, mən də susmuşduq. Mən oyuncaqsız uşaqlığımızdakı günləri yadıma salıb kövrəlsəm də, oğlumun müxtəlif fərqli oyuncaqlarını, bizim, sadəcə, şəkillərdə və televiziya ekranlarından gördüyümüz velosipedini, həyətin dörd bir tərəfindəki futbol toplarını düşünüb onun yaşadığı zamana – uşaqlığına həsəd aparırdım. Yəqin ki, oğlum da nağıldakı uşaqları düşünürdü.

Sükutu oğlum pozdu:

– Dədə, əvvəl kitablarda oxuduğun nağıllarda sehrli xalatlar vardı, sehrli qüvvələrlə keçmişə qayıtmaq olurdu. İndi elə etmək olmazmı?

– Necə etmək?

– Keçmişə qayıtmaq... Keçmişə qayıdıb toplarımın, pultla işləyən maşınlarımın, bacımın gülüb-ağlayan gəlinciklərinin bir neçəsini həmin uşaqlara vermək istəyirəm. Qoy mənim oyuncaqlarımdan onların da olsun.

– Yaxşı, sən yat, mən elə edəcəyəm ki, sən yuxunda keçmişə qayıdacaqsan. Onda oyuncaqlarından o uşaqlara hədiyyə edərsən.

* * *

Gözlərini bərk-bərk yumub yatmağa çalışan oğlum yuxusunda gedəcəyi keçmişi, bizim dövrü, bizim dövrün uşaqlarını xəyal edirdi. Elə bu düşüncələrlə də bir neçə dəqiqədən sonra yuxuya getdi. Bəlkə, elə yuxusunda həmin uşaqlarla görüşdü də, öz oyuncaqları ilə birlikdə oynadı da. Amma bir gün bizim həqiqətlərimizin gizləndiyi nağılların, kitablardan oxuduğu nağıllar kimi dilinin yüyrək olmadığını anlayacaq. Zaman keçdikcə biləcək ki, əslində, o uşaqların da, o uşaqların atalarının da çəkdiyi çətinliklərin səbəbi xaos və qarmaqarışıq, sabahı bəlli olmayan zaman idi. Daha doğrusu, zamanı və yaşayışı o vəziyyətə gətirənlər.

* * *

...Səhər yuxusundan gülümsəyərək oyanan oğlum bu yazını yazdığımdan xəbərsiz gəlib kənardan mənə baxmağa başladı. Üzümə zillənən baxışlarındakı mənadan aydın olurdu ki, axşamkı nağıldakı o uşaqlardan birinin öz dədəsi olduğunu artıq bilir. Yaxınlaşıb boynumu qucaqlayaraq başını çiynimə qoyması da evin hər tərəfinə səpələnmiş oyuncaqlara görə minnətdarlıq jesti idi.

Göydən üç alma düşdü, yaxud P.S. *Yeməkdən sonra məktəbə yollanırıq. Hər ikimizin üzündə təbəssüm var. Oğluma başa salıram ki, sənin oyuncaqlarını – velosipedini də, toplarını da mən alıb gətirmişəm. Amma müstəqil və inkişaf edən dövlətin bugünkü günündə yaşasaydıq, mən də evə əliboş qayıdacaqdım, sən də o vaxtkı uşaqlardan seçilməyəcəkdin.*

Elxan YURDOĞLU

Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub

Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının birgə təşkilatçılığı ilə “Zərərli vərdişlərə “yox” deyək, həmişə sağlam olaq” devizi altında müvafiq məsafələrə qaçış üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib. Azərbaycan Atletika Federasiyasının nümayəndələrinin də iştirak etdiyi birincilikdə Şərur, Babək, Culfa, Ordubad, Kəngərli, Şahbuz, Sədərək və Naxçıvan şəhər komandaları iştirak ediblər. Yarışın əsasnaməsinə görə, hər komandanın heyətində 10 idmançı olub. 40 nəfər oğlan və 40 nəfər qız olmaqla, ümumilikdə, 80 atletin qatıldığı yarış məsafələrə görə müxtəlif olub. Belə ki, oğlanlar 100, 200, 400, 1000 və 1500 metr, qızlar isə 100, 200, 400 və 1000 metr məsafələrə qaçmaqla öz güclərini nümayiş etdiriblər. Bu yarışın keçirilməsində əsas məqsəd məktəblilərin bu sahəyə cəlbinə nail olmaq və qarşıdakı illərdə uğur qazanan idmançıları milli komandanın tərkibinə daxil etməkdən ibarətdir.

Azərbaycan Atletika Federasiyasının Naxçıvana gəlmiş nümayəndəsi, məşqçi-müəllim, beynəlxalq dərəcəli lektor və respublika dərəcəli hakim Aqil Paşayev bizimlə söhbətində belə yarışların keçirilməsinin əhəmiyyətindən danışdı: “Naxçıvanda təşkil edilən yarışda ilk dəfədir, iştirak edirəm. Bizim federasiya atletikanın inkişafı üçün tədbirlər planı hazırlayıb ki, bu da 2012-2016-cı illəri əhatə edir. 5 il müddətində biz Azərbaycanın bütün regionlarında bu idman sahəsinin püxtələşməsi üçün seminarlar, turnirlər təşkil edəcəyik. Bu siyahıda Naxçıvan Muxtar Respublikası da var. Naxçıvanda istedadlı uşaqlar var. İnanıram ki, qarşıdakı illərdə Naxçıvanda yüngül atletika geniş yayılacaq və muxtar respublikanın idmançıları beynəlxalq turnirlərdə öz bacarıqlarını nümayiş etdirəcəklər”.

Qeyd edək ki, sonda Naxçıvan Muxtar Respublika birinciliyində yer tutmuş idmançılar diplomlarla təltif olunublar.

Ceyhun MƏMMƏDOV

Yeni nəşrlər

Bu günlərdə Naxçıvan Dövlət Universitetinin əməkdaşları – iqtisad elmləri doktoru, professor Ağarza Rüstəmovun və kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, dosent Dilsuz Qasımovun “Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi” adlı dərs vəsaiti çapdan çıxıb.



“Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi” adlı dərs vəsaiti çapdan çıxıb

Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə çapı tövsiyə edilən dərs vəsaitində aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi kursunun elmi-metodoloji əsasları, bu sahənin inkişaf istiqamətləri, kənd təsərrüfatında sahənin və regionların spesifik xüsusiyyətləri nəzərə alınmaqla mövcud ehtiyat mənbələrinin aşkar edilməsi, sahibkarlıq formalarının inkişafı, infrastrukturun təşkili, kənd təsərrüfatında idarəetmə sistemi və onun təkmilləşdirilməsi yolları müasir tələblər baxımından təhlil edilib.

Dərs vəsaiti Azərbaycan Respublikası Təhsil Nazirliyinin ali ixtisas təhsili ixtisası üzrə bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan məcburi minimum tələbləri müəyyənləşdirən dövlət təhsili standartlarına uyğun nəzərdə tutulmuş proqram əsasında hazırlanıb. 408 səhifədən ibarət dərs vəsaiti Azərbaycan, rus və ingilis dillərində 20-dən artıq nəzəri ədəbiyyatdan istifadə olunmaqla yazılıb.

Məlumat üçün deyək ki, kitabın rus dilində təkmilləşdirilmiş variantı Moskvada “Umç-Triada” nəşriyyatında işıq üzü görüb.

Elnur KƏLBİZADƏ

AMEA Naxçıvan Bölməsi elmi-tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarında ştatda boş olan şöbə və laboratoriya müdirləri vəzifələrini tutmaq üçün müsabiqə elan edir

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə:

Yeni və ən yeni tarix şöbəsi
Şöbə müdiri – 1 yer

Qədim dövr arxeologiyası şöbəsi
Şöbə müdiri – 1 yer

Qafqaz tarixi şöbəsi
Şöbə müdiri – 1 yer

Arxeoloji xidmət şöbəsi
Şöbə müdiri – 1 yer

İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə:

Musiqi və teatr şöbəsi
Şöbə müdiri – 1 yer

Onomastika şöbəsi
Şöbə müdiri – 1 yer

Təbii Ehtiyatlar İnstitutu üzrə:

Avtomatlaşdırma və seysmologiya laboratoriyası
Laboratoriya rəhbəri – 1 yer

Bioresurslar İnstitutu üzrə:

Meyvə, tərəvəz və üzümçülük laboratoriyası
Laboratoriya rəhbəri – 1 yer

Dənli, taxıl, paxlalı və texniki bitkilər laboratoriyası
Laboratoriya rəhbəri – 1 yer

Bitki sistematikası şöbəsi
Şöbə müdiri – 1 yer

Biokimyəvi tədqiqatlar laboratoriyası
Laboratoriya rəhbəri – 1 yer

Torpaq ehtiyatları laboratoriyası
Laboratoriya rəhbəri – 1 yer

Müsabiqədə yerlərə uyğun olaraq elmlər doktorları, fəlsəfə doktorları iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir:

Az – 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76. AMEA Naxçıvan Bölməsi Kadrlar və doktorantura şöbəsi Telefon: 545-16-80; 544-65-97

AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu elan edir

Naxçıvan Muxtar Respublikası ərazisində qədim kitab və əlyazma nümunələrinin toplanılması və komissiya tərəfindən alınması məqsədilə vətəndaşlardan xahiş edilir ki, aşağıdakı ünvana müraciət etsinlər:

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 35. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu
Tel: 544-69-91; 544-69-92, 050-522-79-98

İtmişdir

Vəliyev Rəmzi Sevindik oğlunun adına olan JN-057[A] inventar nömrəli, 10500018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Türkiyə Respublikasının vətəndaşı Bünyamin Çilə Naxçıvan Muxtar Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş 000778 nömrəli fərdi icazə itdiyindən etibarsız sayılır.

* * *

Türkiyə Respublikasının vətəndaşı Seda Albayraka Naxçıvan Muxtar Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş 000779 nömrəli fərdi icazə itdiyindən etibarsız sayılır.

Allah rəhmət eləsin

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli və təşkilatın əməkdaşları YAP Naxçıvan Şəhər Təşkilatı İdarə Heyətinin üzvü Tamara Baxşəliyevaya, həyat yoldaşı
ƏLƏSGƏRİN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli və institutun professor-müəllim heyəti institutun baş müəllimi Nizami Alıyevə, anası
ZÖHRƏ XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kollektivi iş yoldaşları Rasim Hacıyevə, anası
İNTİZAR XANIMIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva və birliyin üzvləri Nizami Alıyevə, anası
ZÖHRƏ XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tarqulu İsmayılov, Nahidə Əliyeva, Səməd Əhmədov, Yusif Əliyev, Əli Məmmədov və Əliağa Orucov Səftər Məmmədova, atası
DÖVLƏT MƏMMƏDOVUN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti Nizami Alıyevə, anası
ZÖHRƏ XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Musiqi Kollecinin direktoru Yusif Babayev və kollecin kollektivi iş yoldaşları Akif Bağırova, həyat yoldaşı
SƏKİNƏ XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşları iş yoldaşları Nizami Alıyevə, anası
ZÖHRƏ XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yaqub Məmmədov ailəsi ilə birlikdə dostu Nizami Alıyevə, anası
ZÖHRƏ XANIMIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: **Səbuhi Hüseynov**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 1007